**Güney Azərbaycan Təşkilatlarının Əməkdaşlıq Şurasının**
**BƏYANATI**

Bu gün İran adlanan coğrafiyada məktəblər açılır. Ancaq Azərbaycan türkcəsi qadağalar yaşayır! Təssüf olsun ki, milyonlarla Azərbaycan türkü övladların doğma ana dilində təhsil almaq haqqı yenə də qadağalar altında boğulur! Mədəni soyqırım davam edir!

Ana dilimiz millətimizin sütunudur!

Ana dili hər bir xalqın milli kimliyidir!

Dəyərli vətəndaşlar,

Ana dili hər bir xalqın varlığını təsdiq edən başlıca amildir. Hər bir xalqın öz ana dili onun milli sərvəti, həm də millətin dili, əlifbası, onun millət olaraq formalaşmasında vacib şərtlərdən biridir. Xalqın keçdiyi tarixi yol, onun mədəni səviyyəsi, ana dilində öz əksini tapır. Ana dili həm də çətin tarixi-siyasi dövrlərdə millətin varlığının yaşadılması üçün əsas vasitələrdən biridir. Dilini itirən xalq məhvə məhkumdur. Doğma ana dilimiz olan Azərbaycan türkcəsi xalqımız yaşadıqca qalmalı və dilimizi gələcək nəsillərə çatdırmaq bizim borcumuzdur. Əlimizə gəlib çatan qədim əsərlər bizə göstərir ki, Azərbaycan xalqının yüksək məqsədini və səylərini, daxili hiss və həyəcanlarını, həyat və məişət haqqındakı fikri və fəlsəfi düşüncələrini ifadə etmək üçün, qədim zamanlardan gözəl şəkildə zənginləşmiş və canlı danışıq dilindən müntəzəm surətdə qidalanan Azərbaycan türkcəsi, yüksək fəlsəfi əsərlərə, qəhrəmanlıq dastanlarına qüvvətlə çevrilmiş və dillər əzbəri olmuşdur. Günü-gündən qloballaşan dünyamızda Azərbaycan dilinin qorunub saxlanılması və inkişaf etdirilməsi bu günümüzün ən zəruri məsələlərindən, ən vacib reallıqlarından biridir. Onu da vurğulamaq lazımdır ki, Azərbaycan dili 50 milyondan artıq soydaşımızı bir-biriylə birləşdirən və doğmalaşdıran atributdur.

Biz bu gün İran rejimi tərəfindən mədəniyyətimizə, tariximizə, dilimizə nə qədər ziyan vurulduğunu çox gözəl dərk edirik. İranda son 100 ildə fars şovinizmi xarici dəstəkçiləri ilə öz maraqlarına uyğun formalaşmış, sömürgəçilik və müstəmləkəçilik dövlət ideoloji aparatları qurmuş, və həmin sistemi geridə qalmış kütlələrin adət-ənənələri ilə birgə zülm altında yaşayan millətlərin – türk, ərəb, bəluç, kürd, türkmən, Xorasan türkləri və qaşqayıların da gündəlik həyat səviyyəsinə tətbiq etmişdir. Mərkəzçi pan-iranist rejimlər tərəfindən ana dillərimiz həmişə hücuma məruz qalmış, qadağan olmuşdur. Dilimizə qarşı fərmanlar və hökmlər çıxarılsa da, millətimiz öz doğma dilini yaşatmış, ən gözəl və xoş xəyallarını bu dildə bəstələmiş, ölməz əsərləri bu dildə yazmışdır. Heç bir qüvvə doğma Azərbaycan türkcəmizi öz millətimizin əlindən tamamilə ala bilməmişdir. Əksinə, milli qurtuluş uğrunda aparılmış mücadilə yolunda bu dil, birinci rol oynamış və millətimizi vahid məqsədlər uğrunda döyüşlərə ruhlandırmışdır. “Ana dilində mədrəsə, olmalıdır hər kəsə!" şüarı, yeddidən yetmişədək, hər bir güneyli azərbaycanlının səsləndirdiyi gündəlik şuarı olmuşdur. 80 il öncə dilimiz Azərbaycan Milli Hökuməti dövründə dövlət dilli səviyyəsinə qaldırılmış və rəsmiləşdirilmişdir. Həmin dövrdə milli eyitim yaranır, məktəblər, universitetlər, radio açılır, milli mətbuat və media fəaliyyət göstərir, dövlət orqanları ana dilimizdə çalışır, dilimiz inkişaf edir və etdirir.

Təəssüflə şovonist Pəhləvi rejimi tərəfindən Azərbaycan Milli Hökuməti qan dəryasında boğulduqdan sonra (17 dekabr 1946 – 26 Azər 1325) qadağalar yenidən başlayır, türk dilində kitablar meydanlarda yandırılır. Ana dilində məktəblər bağlanır. Millətimiz insani soyqırımla bərabər mədəni soyqırıma məruz qalır. 1979-cu ildə hakimiyyətə gələn İslami rejim də Pəhləvi rejimin varisi kimi bol-bol yalan vədlər və qanunlarla çıxış etsə də yenə “köhnə hamam, köhnə tas” hakim olur. Bunlardan əlavə gündən-günə daha da məhdudlaşdırma

"qanun- qaydaları" ortaya çıxır. İqtisadi-siyasi sıxıntılarla bərabər psixoloji-ictimai metodlarla Azərbaycan uşaqlarının təhsil şəraiti sərtləşir və daha artıq təzyiqlərə məruz qalırlar. Bir tərəfdən Güney Azərbaycanın yeraltı-yerüstü sərvətləri, qızıl və mis mədənləri, meşə və kənd təsərrufatı talanır, digər tərəfdən də həmin pullar fars dilinin məsrəflərinə xərclənir.

Bu gün Mehr ayının əvvəli, məktəblərin açılış günüdür. Lakin 40 milyonluq Azərbaycan türkləri ilə bərabər digər qeyri-fars millətlərin bircə belə ana dilində məktəbi yoxdur. Bəs bu irqçilik deyil də, nədir? Ana dilimizin azadlığının ancaq bircə yolu var: Millətimiz öz iradəsini ortaya qoyaraq, Azadlıq! Ədalət! Milli Hökumət!-i bərpa etməlidir!

Əziz vətəndaşlar,

Bildiyiniz kimi, dilimizə, mədəniyyətimizə qarşı Rejimin siyasəti onun anti-Azərbaycan siyasətindən irəli gəlir. Bu neqativ fenomenin təzahürlərinə qarşı mübarizə aparmadan, hərtərəfli mücadilə iddiasında olmaq mümkün deyil. Son 100 ildə süngü ilə zindanlar, geniş dövləti imkanalarla yayılmış mərkəzçilik fars şovinizmini təkcə rəsmi fikirlərini yox, həm də mövhümatları, köhnə adət-ənənələri, xüsusi ifadələri, saxta sözləri, saxta tarixi, saxta kimliyi və məşhur fars "zarafatları"-nı gərək ifşa etmək - hansı ki, onlar rejimin təbliğatının məcmusudur!

Heç bir qüvvə millətimizi doğma dilindən, kimliyində və milli varlığından ayıra bilməz! Azərbaycan türkcəsi yaşamalıdır və yaşayacaqdır!

**Güney Azərbaycan Təşkilatlarının Əməkdaşlıq Şurası, 2025-09-23**

1. Azərbaycan Demokrat Firqəsi – ADF

2. Azərbaycan Mərkəz Partiyası – AMP

3. Azərbaycan Milli Dirəniş Təşkilatı – Dirəniş

4. Azərbaycan Öyrənci Hərəkatı – AZOH

5. Güney Azərbaycan Cümhuriyyət Partiyası – ACP

6. Güney Azərbaycan Demokrat Partiyası – GADP

7. Güney Azərbaycan İstiqlal Partiyası – GAİP

8. Güney Azərbaycan Milli Dövlət Alyansı– MDA

9. Güney Azərbaycan Qurtuluş Partiyası – GAQP